# THE NECESSITY OF CHILDREN’S SOCIAL DEVELOPMENT

**Elnura Malikova**

Methodologist of the kindergarten No. 345, Yasamal district, Baku city
E-mail: elnuremelikova1976@gmail.com
https://orcid.org/0009-0000-5380-2937

**Abstract.** The article discusses the necessity of social development in preschool children, the characteristics of its organization, as well as children’s adaptation to the initial stage of education and socialization in a continuous education system. It is noted that not only educators but also parents should be supportive in the implementation of children’s social development. The article specifically emphasizes that educators must have high pedagogical professionalism in order to deeply understand the pedagogical and psychological characteristics of each child and provide an individual approach. The article also touches on the issues of socialization of preschool children, the development of their social skills, and the development of inclusive education.
**Keywords:** preschool education, social development, social environment, social skills and habits, inclusive education, early childhood, ability, intellect.

**DOI:** 10.30546/2709-2488.4.2024.022
**To cite this article:** Malikova E. (2024). The necessity of children's social development. *Journal of Preschool and Primary Education*, Vol. 249, Issue IV, pp. 89-96.
**Article history:** received – 22.10.2024; accepted – 17.12.2024.

# UŞAQLARIN SOSİAL İNKİŞAFININ ZƏRURİLİYİ

**Elnurə Məlikova**

Bakı şəhəri, Yasamal rayonu 345 saylı körpələr evi-uşaq bağçasının metodisti
E-mail: elnuremelikova1976@gmail.com
https://orcid.org/0009-0000-5380-2937

**Annotasiya.** Məqalədə məktəbəqədər yaşlı uşaqların sosial inkişafının zəruriliyindən və təşkili xüsusiyyətlərindən, həmçinin uşaqların təhsilin ilkin pilləsinə adaptasiya olması və fasiləsiz təhsil sistemində sosiallaşmasından söhbət açılır. Qeyd olunur ki, yalnız tərbiyəçi-müəllimlər deyil, valideynlər də uşaqların sosial inkişafının həyata keçirilməsində dəstəkləyici olmalıdırlar. Xüsusi olaraq o da vurğulanır ki, hər bir uşağın pedaqoji-psixoloji xüsusiyyətlərini dərindən bilərək onlara fərdi yanaşmanı təmin edə bilmək üçün tərbiyəçi-müəllimlərin pedaqoji peşəkarlıq fəaliyyəti yüksək olmalıdır. Məqalədə həmçinin, məktəbəqədər yaşlı uşaqların sosiallaşması, sosial bacarıqlarının inkişaf etdirilməsi üçün hansı strategiyalardan istifadə olunması və inklüziv təhsilin inkişafı məsələlərinə də toxunulur.

**Açar sözlər:** məktəbəqədər təhsil, sosial inkişaf, sosial mühit, sosial bacarıq və vərdişlər, inklüziv təhsil, erkən uşaqlıq, qabiliyyət, intellekt.

**DOI:** 10.30546/2709-2488.4.2024.022
**Məqaləyə istinad:** Məlikova E. (2024). Uşaqların sosial inkişafının zəruriliyi. «*Məktəbəqədər və ibtidai təhsil*», № 4 (249), səh. 89-96.
**Məqalə tarixçəsi:** göndərilib – 22.10.2024; qəbul edilib – 17.12.2024.

## Giriş / Introduction

Uşağın şəxsiyyət kimi formalaşıb inkişaf etməsində məktəbəqədər yaş dövrünün rolu böyükdür. Bu dövrdə uşaqların yaş xüsusiyyətləri inkişafın sonrakı mərhələlərindən fərqlənir. Məktəbəqədər yaş dövründə bu məsuliyyətli və şərəfli işi öhdəsinə götürən biz tərbiyəçi müəllimlər onları öyrətməyə və qayğı göstərməyə hər an hazır olmalıyıq. Uşaqların inkişafına bilik və bacarıqlarının artırılmasına nə qədər çox töhfə verə bilsək, nəticə bir o qədər uğurlu olacaqdır. Uşaqlar öz potensiallarını üzə çıxarmaq, mürəkkəb dünyada çətinliklərin öhdəsindən gəlmək üçün həm intellektual, həm də sosial cəhətdən hazırlıqlı olmalıdırlar.

Müasir məktəbəqədər təhsilin məqsədlərindən biri də məktəbəqədər yaşlı uşaqların fiziki, psixi, emosional, intellektual, sosial inkişafı üçün şərait yaratmaqdan ibarətdir. Bu yaşda fəaliyyətin əsas istiqamətləri müxtəlif əşyaları öyrənməyə və insanların hər hansı təhlükəli olmayan obyektlərlə işləmə üsullarını mənimsəməyə yönəlmiş mövzulardır.

Başqa bir vacib məqam nəzərə alınmalıdır ki, böyüklərlə ünsiyyət prosesində uşaq onların sosial təcrübəsini, ətraf mühitlə qarşılıqlı əlaqənin xarakterini "uyğunlaşdırır", yəni sosiallaşır. Bunun üçün valideynlər və tərbiyəçi-müəllimlər ətraf mühiti təşkil etməli cisim və hadisələri tanıtmalı, idrak fəaliyyətini formalaşdırmaq davranışı, hissləri, emosiyaları istiqamətləndirmək, körpənin hissi qabiliyyətlərini inkişaf etdirmək, müstəqilliyin təzahürlərini dəstəkləmək, düzgün tərbiyə üsullarını seçmək və uşaqlığın bu dövrünün xüsusiyyətlərini nəzərə alaraq müvafiq şərait yaratmalıdırlar.

## Əsas hissə / Main part

Məktəbəqədər yaş dövründə davamlı olmayan emosional əhval-ruhiyyə emosiyaların yaradılması və həssaslığı ilə səciyyələndirilir. Məktəbəqədər yaşlı uşaqlarda sosial və emosional keyfiyyətlər vəhdətdə inkişaf etdirilir [Əliyeva, Ş., Mustafayeva, S., Həmidova, X., 2020].

Məlumdur ki, erkən yaş dövrü uşağın bütün orqan və orqan sistemlərinin formalaşması, sağlamlığının və xarakterinin əsaslarının qoyulması ilə xarakterizə olunur. Bu dövr uşağın inkişafı üçün xüsusilə əhəmiyyətli dövr hesab olunur. Buna görə də körpəlik və erkən uşaqlıq dövründə mühitdən asılı olmayaraq, istər ailədə, istərsə də məktəbəqədər müəssisədə uşağın tərbiyə olunması, əqli, fiziki inkişafı və şəxsiyyət kimi formalaşması üçün əlverişli şəraitin yaradılması son dərəcə vacib amildir [Əliyeva, Ş., Mustafayeva, S., Həmidova, X., 2020].

Sensor inkişaf duyğu orqanlarının (görmə, eşitmə, iybilmə, dadbilmə, toxun-

ma) fəaliyyəti ilə ayrılmaz şəkildə bağlıdır. Erkən yaş dövründə uşaqlar ətraf aləmi duyğu orqanları vasitəsi ilə qavrayıb dərk edirlər. Bilik cisim və hadisələrin qavranılmasından başlayır, duyğu qabiliyyətləri zehni inkişafın əsasını təşkil edir [Novruzlu, X., 2017].

Kiçik məktəbəqədər yaşlı uşaqların inkişafında oyun əsas fəaliyyətə çevrilir. Bu, uşaqlar üçün əyləncəli və eyni zamanda onların əqli, fiziki inkişafı üçün ən təsirli fəaliyyət növüdür.

Məktəbəqədər yaş dövrü uşağın şəxsiyyət kimi formalaşıb inkişaf etdiyi dövrdür. Bu dövrdə uşaqların yaş xüsusiyyətləri inkişafın sonrakı mərhələlərindən fərqlənir. Məktəbəqədər müəssisələrdə məsuliyyətli və şərəfli işi öhdəsinə götürən tərbiyəçi-müəllimlər uşaqlara qayğı ilə yanaşır, onlarda bilik və bacarıqların inkişaf etdirilməsinə böyük zəhmət və əmək sərf edirlər.

Müasir məktəbəqədər təhsilin məqsədlərindən biri də məktəbəqədər yaşlı uşaqların fiziki, psixi, emosional, sosial və intellektual inkişafı üçün şərait yaratmaqdır.

Böyüklərlə ünsiyyət prosesində uşaqlar onların sosial təcrübəsini, ətraf mühitlə qarşılıqlı əlaqənin xarakterini mənimsəyərək sosiallaşır [Məmmədova, Y., 2019].

Uşağın sosial-emosional inkişafı məhz yaşadığı sosial mühitin normaları əsasında tənzimlənir. Sosial-emosional inkişaf vasitəsi ilə uşaqlarda insanlara qarşı müsbət münasibət, xeyirxahlıq, qayğıkeşlik, qarşılıqlı yardım, başqasının dərdinə şərik olmaq, münaqişələrin həlli və s. kimi mənəvi keyfiyyətlər formalaşdırılır. Uşaqlar oyun, əmək, əməli fəaliyyət və kollektivdə davranış qaydalarına dair ilkin bacarıqlara yiyələnir və sosial istiqamətdə inkişaf edirlər. Böyüklər və yaşıdları ilə birgə fəaliyyət onlarda ilkin ünsiyyətin formalaşmasına yardımçı olur. Ünsiyyətin köməyi isə birgə fəaliyyətin müxtəlif növlərində şəxsiyyətlərarası əlaqələr, böyüklərə hörmət, yaşıdlarına güzəşt, qarşılıqlı təhsil və qarşılıqlı anlaşma da təmin olunur. Müşahidələr göstərir ki, uşağın şəxsiyyət kimi formalaşmasında ünsiyyət mühüm vasitələrdən biridir. Kommunikativ nitqi lazımi səviyyədə inkişaf etməmiş uşaqlar, sosial davranışdan geri qalır, yaşıdları ilə davranış çətinlikləri yaşayırlar. Onların aktiv fəaliyyətlərinin inkişafına kömək etmək tərbiyəçi-müəllimlər üçün prioritet məsələ olmalıdır [Məmmədova, X., 2005].

Uşaqların sosial inkişafı üçün həm ailədə, həm də məktəbəqədər təhsil müəssisələrində pedaqoji, maarifləndirici işlər aparılmalıdır. Valideynlər uşaqlarla davamlı ünsiyyətdə olmalı, suallarını cavablandırmalı, onları tez-tez gəzintilərə, səyahətlərə, teatr və tamaşalara aparmalıdırlar [Əliyeva, Ş., Mustafayeva, S., Həmidova, X., 2020]. Unutmaq olmaz ki, insan şəxsiyyəti sosial-emosional inkişaf, fəaliyyət və ünsiyyət prosesində formalaşır. Bu baxımdan, fəaliyyətin ahəngdar və qanunauyğun inkişafı uşağın sosiallaşdırılması prosesində əsas amildir. Uşaq-

larda sosial bacarıqların inkişafında oyunlar əvəzolunmaz strategiyadır. Sosiallaşma baxımından, oyun uşaqlarla münasibət yaratmağı davranış qaydalarını öyrənməyi və onlarla bölüşməyi, danışıqlar aparmağı və kommunikasiya bacarıqları aşılayır [Məmmədova, Y., 2019]. Mənəvi dəyərlər baxımından isə oyunlar uşaqlarda hörmət bəsləmək, dəyər vermək və s. kimi əxlaqi keyfiyyətlər formalaşdırır. Müşahidələr göstərir ki, təhsil müəssisəsinə adaptasiya olmaqda çətinlik çəkən uşaqlar ikinci yarım ildə artıq sosiallaşmış və daha fəal olurlar. Məşğələlərdə keçirilən didaktik oyunlar fiziki, yaradıcı, xəyali, simvolik oyunlar, bayram və tədbirlərdə sosial əlaqələri onların duyğu və hisslərini ifadə etmək, qərar qəbul etmək, problemi həll etmək, müstəqil fəaliyyət göstərmək, əməkdaşlıq etmək, başqalarının fikirlərinə hörmət etmək kimi müsbət keyfiyyətlər aşılayır. Uşaqlar sosial qarşılıqlı əlaqə vasitəsi ilə daha çox öyrənə bilirlər. Onların sosial inkişafının təmin olunmasında xəyali sosial oyunların yeri danılmazdır. Sosial təxəyyüllü oyunlar vasitəsi ilə uşaqlar ideya vermək, ünsiyyət qurmaq, materiallardan simvolik istifadə etmək, sınaq, səhv etmək yolu ilə öyrənmək bacarıqlarını inkişaf etdirirlər. Tərbiyəçi-müəllimlər uşaqların bu maraqlarını müşahidə edərək, onların oyunlarını dəstəkləyərək, inkişafetdirici mühit yaratmalıdırlar. Məktəbəqədər müəssisələrdə çalışan tərbiyəçi-müəllimlər oyunun əhəmiyyətini getdikcə daha çox dərk edirlər. Oyun kurikulumun əsasını təşkil edir və bir çox formada həyata keçirilir [Cəfərova, L., 2015]. Bunların ən mühüm olanlarından biri sensor inkişafa xidmət edən oyundur, çünki o, uşağın duyğu orqanlarına (dadbilmə, toxunma, iybilmə, görmə və eşitmə) və beynin inkişafına çox müsbət təsir göstərir. Oyunun nədən ibarət olduğunu və uşaqların inkişafının bütün aspektlərini dəstəkləmək üçün onun məktəbəqədər müəssisəyə və kurikuluma necə daxil edilməsi dünya alimlərinin diqqət mərkəzindədir.

Sensor tərbiyənin inkişafında didaktik oyunlar istifadə olunur. Tərbiyəçi-müəllim həm müəllim, həm də oyunun iştirakçısıdır. Uşaqlar həm qrup otağında, həm də təlimdən kənarda təkbaşına maarifləndirici oyunlar oynaya bilərlər. Oyun saatlarında sərbəst fəaliyyətləri üçün uşaqlara daha çox şərait yaradılır.

Oyun və fəaliyyətlərin köməyi ilə müəllim nəinki müəyyən bilikləri çatdırır, oyun süjetinin qurulması haqqında təsəvvürlər formalaşdırır, həm də uşaqlara oynamağı öyrədir. Uşaq oyunlarının əsasını oyun süjetinin qurulması, obyektlərlə müxtəlif oyun hərəkətləri haqqında təsəvvürlər formalaşdırır. Oyunlar buna əsaslanan fəaliyyətlərdir və müxtəlif oyun texnikalarından istifadə edərək uşaqların birbaşa öyrədilməsinə istinad edir.

Məktəbəqədər yaşlı uşaqlar üçün həm qapalı, həm də açıq havada keçirilən yarış xarakterli fiziki oyunlar sosial inkişafın formalaşmasına kömək edir. Fiziki mütəhərrik oyunları təşkil edərkən, tərbiyəçi-müəllimlər uşaqları müşahidə edərək "Yaxın İnkişaf Zonası"nda onların növbəti addımının nə olacağını göz-

ləməli, təhlükəsiz və etibarlı mühiti təmin etmək üçün müəyyən addımlar atmalıdırlar [Hacıyeva, H., Bayramova, A., 2020].

Yaradıcı və xəyali oyunlar uşaqlarda həm fiziki, həm də araşdırma bacarıqlarını inkişaf etdirməyə özünüifadə qabiliyyətini və təcrübəsini araşdırmaq, ətraf aləmə başqalarının nöqteyi-nəzərindən baxmaq imkanı verir [Cəfərova, L., 2015].

Oyun və əyləncələr uşaqların sağlamlığı, rifahı üçün vacibdir və onlarda yaradıcılıq, özünəinam, özünüdərk kimi keyfiyyətlərin, sosial bacarıqların formalaşmasına kömək edir. Uşaqların fəaliyyəti nə qədər dolğun, rəngarəng, eyni zamanda uşaq üçün nə qədər çox əhəmiyyətli olsa və onun təbiətini əks etdirsə, o zaman onun sosiallaşması bir o qədər sürətlənəcəkdir. Tərbiyəçi-müəllimlərimiz tez-tez uşaqlarla sosial söhbətlər aparır oyunlar, əyləncələr keçirir, kitab və nağıllar oxuyur, onları sosial fəaliyyətə cəlb edirlər. Bu sahələr üzrə sosial istiqamətdə formalaşan uşaqlar ilin sonunda uğurlu nəticəni əldə etmiş olur və məktəbəqədər təhsil müəssisəsinə tam adaptasiya olmuş olurlar. Erkən məktəbəqədər yaşda uşaqların sensor inkişafına yönəlmiş xüsusi məşğələlər keçirmək lazımdır ki, bu da müxtəlif təcrübə toplamağa kömək edəcəkdir. Sonrakı mərhələlərdə bu bilik ehtiyatı artıq reallaşır və sonra uşaqlar onu müxtəlif situasiyalarda tətbiq edə bilirlər. Daha sonra sistem (dəqiqləşdirmə-möhkəmləndirmə-genişləndirmə) məşğələlər zamanı və müxtəlif həyati şəraitlərdə ibtidai məktəb yaşına qədər işlənir.

Cəmiyyətdə sosial bərabərliyin qorunmasına şərait yaratmış inklüziv təhsil əlilliyi olan sağlamlıq imkanları məhdud uşaqların da sosial inkişafı çox aktual məsələlərdən biridir. Unutmamalıyıq ki, Azərbaycan BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" konvensiyasına qoşulmuşdur, əlilliyi olan şəxslərin təhsil hüquqlarını tanıyır və onların inklüziv təhsilini təmin etmək məqsədi ilə üzərinə götürdüyü öhdəliklərdən biri də "Sosial inkişafa şərait yaradan mühitdə fərdi ehtiyaclara uyğun zəruri dəstək tədbirlərini təmin etmək"dir [Cəfərova, L., Qasımova, A., Rəsulova, İ. və b., 2021]. Müşahidələrdən bu nəticəyə gəlmək olur ki, əlilliyi olan şəxslərin təhsil hüququnun, təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin edilməsi, təlimdə iştirakı mükəmməl şəkildə təhsil almaq imkanını verir. Axı bütün insanlara öz həmyaşıdlarının dəstək və dostluğu lazımdır. Fərqliliyi ilə seçilən bu uşaqlar cəmiyyətimizin bir hissəsidir. Onlar da sosiallaşmalı, məktəbəqədər təhsil müəssisələrində digər uşaqlarla birlikdə oyunlarda, məşğələ və bayram tədbirlərində iştirak etməlidirlər. Bütün bunları nəzərə alaraq, biz tərbiyəçi-müəllimlər fəaliyyətimizdə inklüziv olmalı, onlarla praktik fəaliyyətləri inkişaf etdirib, sosial yanaşmaya üstünlük verməliyik [Cəfərova, L., Qasımova, A., Rəsulova, İ. və b., 2021].

Yuxarıda söylədiyimiz fikirlərə əsaslanaraq belə bir qənaətə gəlmək olar ki, məktəbəqədər yaşlı uşaqların sosial inkişafı aşağıdakı parametrlərlə şərtləndirilə bilər:

- sosial inkişaf üçün vacib olanlar;
- nitq və ünsiyyət bacarıqlarının inkişafı;
- yaşıdları ilə birgə fəaliyyət;
- qabiliyyət və bacarıqlarının üzə çıxarılması;
- oyun və əyləncələrin təşkil edilməsi;
- özünəinam keyfiyyətlərinin formalaşdırılması;
- sosial davranışların və vərdişlərin inkişaf etdirilməsi.

## Nəticə / Conclusion

Bu müəyyənləşdirilən parametrlər uşaqların sosial inkişafını təmin edir. Sosiallaşma prosesi insan həyatının uşaqlıq dövründən başlayır və bütün ömrü boyu davam edir. Uşaqlarda nitqin lazımi səviyyədə inkişaf etməməsi səbəbindən onlarda sosial davranışın zəruri komponentlərinin vaxtında inkişaf etməsi tormozlayır, bu isə uşaqda emosional-şəxsi və davranış çətinliklərinin yaradılmasına gətirib çıxarır. Uşaqların aktiv fəaliyyətinə, gələcək inkişafına kömək edən metodların seçilməsi vacib şərtlərdən biridir. Məktəbəqədər yaşlı uşaq üçün ətrafdakılarla, böyüklərlə, yaşıdları ilə aktiv ünsiyyət daha yaxın və təbiidir. Ünsiyyətin uşağın sosial-şəxsiyyət kimi formalaşmasında əsas vasitəyə çevrilməsi mühüm amildir. Bunu nəzərə alaraq, deməliyik ki, uşaqların məktəbəqədər yaş dövründə sosial inkişafının təməli elə qoyulmalıdır ki, onlar gələcək həyatlarında məktəb təliminə tam hazır, cəmiyyətdə sosial rolunu bilən yaradıcı, müstəqil, sosial inkişafa uyğun şəxsiyyət kimi yetişsinlər. Biz pedaqoqlar xoşbəxt və sağlam fərdlərin yaşayıb-yaradacağı bir dünya qurmaqda onlara kömək edə bilərik.

**Məqalənin aktuallığı.** Məktəbəqədər təhsil müəssisəsində uşağın sosial-emosional inkişafının təmin edilməsi aktual problemdir. Buna səbəb günügündən inkişaf etməkdə olan müasir cəmiyyətimizdə təhsilin qarşısına qoyulan əsas vəzifələrdən biri olan, nəzəri biliklərlə yanaşı sosial bacarıqlara malik şəxsiyyət formalaşdırmaqdır. Təbii ki, sosial bacarıqların təməli məktəbəqədər yaşda qoyulur, bu mənada tərbiyəçi-müəllimlərin üzərinə böyük məsuliyyət düşür.

**Məqalənin elmi yeniliyi.** Məktəbəqədər təhsil müəssisəsində fəaliyyət göstərən tərbiyəçi - müəllimlərin peşəkarlıq səviyyələri yüksək olmalı, gələcəyimiz olan uşaqlarımızın sosial inkişafı düzgün təmin edilməlidir. Həm ailədə, həm də məktəbəqədər təhsil müəssisəsində uşaqlar yaradıcı fəaliyyətlərə cəlb olunmalıdırlar. Nitq və ünsiyyət bu problemin həllində prioritet məsələlərdən biridir. Sosial-emosional inkişafı hərtərəfli təmin olunan uşaqlar sosial mühitə tez adaptasiya olunurlar. Məqalədə məktəbəqədər yaşlı uşaqların sosial inkişafını şərtləndirən fəaliyyət növünün təsnifatı verilir və müvafiq strategiyalardan istifadə olunması tövsiyə olunur.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalə məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçi-müəllimlər, metodistlər, məktəbəqədər yaşlı övladları olan gənc valideynlər üçün təcrübi baxımdan faydalı ola bilər. Həmçinin məqalədə iş təcrübəsinə istinadən verilmiş strategiyalardan istifadə məktəbəqədər yaşlı uşaqların sosial inkişafının səmərəli təşkili baxımından əhəmiyyətli hesab olunur.

**İstifadə edilmiş ədəbiyyat / References**


1. Əliyeva, Ş., Mustafayeva, S., Həmidova, X. (2020). Ailələrlə işin həyata keçirilməsi. Bakı, ARTİ.
2. Cəfərova, L. (2015). Məktəbəqədər müəssisə rəhbərinin stolüstü kitabı. Bakı, ARTİ. 352 s.
3. Məmmədova, X. (2005). Uşaq yaradıcılığı aydın, maraqlı obrazlar dünyası. "Məktəbəqədər və ibtidai təhsil" jurnalı, Bakı, №1.
4. Cəfərova, L., Qasımov, A., Rəsulova, İ., Əzimzadə, A. və b., (2021). Məktəbəhazırlıq qruplarında inklüziv təlimin təşkili. Bakı, ARTİ.
5. Məmmədova, Y. (2019). Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsinin məzmunu və yolları. Bakı, ADPU, 211s.
6. Novruzlu, X. (2017). Kiçikyaşlı məktəblilərin sosiallaşmasında tərbiyənin rolu. "Məktəbəqədər və ibtidai təhsil" jurnalı, Bakı, № 1, s. 58-61.
7. Hacıyeva, H., Bayramova, A. (2020). Təlim-tərbiyə və inkişaf prosesinin həyata keçirilməsi. Bakı, ARTİ.